12

2015

# GÖYƏRÇİN

İSSN-0207-4710



**RAFİQ YUSİFOĞLU**

## BABAM VƏ QIŞ

Babam qışa bənzəyir,
Saç-saqqalı dümağdı.
Elə bil zirvəsinə
Qar ələnən bir dağdı.

Təbəssümü bənzəyir
İşıq saçan günəşə.
Qış soyuq olur, babam
İpistidi həmişə...

## SAÇ VƏ SAQQAL

– Bu necə olan işdi,
Baba, bu kişiyə bax! –
Saqqalı qapqaradı,
Saçları isə dümağ...

Baba güldü, gözündə
Ulduz tək bərq vurdu yaş:
– Bala, saqqal o saçdan
Cavandı iyirmi yaş...

## FATMƏ QAR İSTƏYİR

Fatimə bərk darıxır,
Bakını salır yada.
Soruşur burda nə vaxt
Qar yağacaq, ay ata?

Gursel gülür, ay qızım,
Qış olmur ha Venisdə.
Qar tapmaq müşgül işdi,
Məndən başqa şey istə!

Fatimə fikirləşir,
Gözləri hey yol çəkir.
Elə bil ki, üzünə
Duman çökür, çən çökür.

Xatırlayır Bakının
Göz oxşayan qışını.
Belə deyir atadan
Yelləyərək başını:

– Eyni cür havalardan
Daha gəlmişəm cana.
Ata, bizi də götür,
Dönək Azərbaycana!





## İLK QAR

Göydən gələn qara bax,
Dörd tərəfi bürüyür.
Ancaq çox heyf ki, qar
Yerə düşüb əriyir.

Təkcə evin damında
Adda-budda ağarır.
Fatimə çölə baxıb,
Atasını çağırır.

Deyir: – Bir bax, qış gəlir,
Adam soyuqdan donur.
Qar hər yeri bəyənmir,
Damın üstünə qonur...

## BU QAR NİYƏ ƏRİMİR

Maşınlar dəymir gözə,
Qar yolları bağlayıb.
Qış işə gedənləri
Bu gün evdə saxlayıb.

Bayıra çıxmır deyə,
Qırxmayıbdır üzünü –
Nəvə öz babasına
Zilləyibdir gözünü.

Gah çöldə yağan qara,
Gah saqqalıma baxıb,
O, gülür: – Babanın da
Üz-gözünə qar yağıb.

Çöldə qar suya döndü,
Nəvəm baxıb kirimir.
Deyir: – Bəs niyə sənin
Üzündə qar ərimir?!

